**Azərbaycan Respublikasının Auditorlar Palatasının sədri**
**Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

Sizi və kollektivinizi Azərbaycan Respublikasının iqtisadi sistemində özünəməxsus yeri olan və şəffaflığın təmin edilməsində əvəzsiz rol oynayan Auditorlar Palatasının yaradılmasının 25 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Azərbaycanda nəzarət sisteminin təkmilləşdirilməsi və nəzarət mexanizmlərinin bazar iqtisadiyyatının xüsusiyyətlərinə uyğunlaşdırılması Ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu siyasətində daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri olmuşdur.

Bu gün də, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatında əsaslı irəliləyişlər olmuş, beynəlxalq standartların tətbiqi, maarifləndirmənin genişləndirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi yolunda vacib addımlar atılmışdır. Müstəqil maliyyə bazarının formalaşdırılması, dövlət orqanlarının fəaliyyətində şəffaflığın və məsuliyyətin artırılması istiqamətində təqdirəlayiq işlər görülür.

Azərbaycanda audit xidməti iqtisadiyyatın və regionların inkişafı sahəsində genişmiqyaslı proqramların həyata keçirilməsi, ölkənin qeyri-neft sektoruna investisiya axının gücləndirilməsi, sahibkarlığın inkişafı, əhalinin məşğulluğunun yüksəldilməsi, yoxsulluğun azaldılması və xalqın rifah halının yaxşılaşdırılması ilə bağlı iqtisadi siyasətin aparılmasında mühüm rol oynayır. Şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, maliyyə hesabatlılığının təkmilləşdirilməsi, açıq və demokratik prinsiplərə əsaslanan dövlət quruculuğunun surətləndirilməsi, regionların və sahibkarlığın süni maneələr və müdaxilələr olmadan inkişaf

etdirilməsi kimi mühüm məqsədləri özündə ehtiva edən Dövlət Proqramları çərçivəsində Auditorlar Palatası bir çox problemlərin həllinə nail olmuşdur.

Sizin rəhbərliyiniz ilə Auditorlar Palatası fəaliyyəti dövründə ölkədə beynəlxalq audit standartlarının tətbiqini reallaşdırılmış, auditor fəaliyyətinin dövlət tənzimlənməsini həyata keçirilmiş, eyni zamanda, auditorların fəaliyyətinə effektiv nəzarətin qurulması sahəsində xeyli iş görülmüşdür.

**Hörmətli Vahid müəllim,**

Sizi və əməkdaşlarınızı bir daha Azərbaycan Respublikasının Auditorlar Palatasının yaradılmasının 25 illik yubileyi münasibətilə şəxsən öz adımdan, eləcə də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin kollektivi adından ürəkdən təbrik edir, ölkəmizin iqtisadi qüdrətinin və potensialının artması naminə səmərəli fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

**Azərbaycan Respublikasının**

**Ailə, Qadın və Uşaq Problemləri**

**üzrə Dövlət Komitəsinin sədri** **Bahar Muradova**